AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**AHMET ADEM OĞLU ÇAMALAN**

# AZƏRBAYCAN RESPUBLIKASI İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA TƏHSİL ƏLAQƏLƏRİ (1991-2010)

**İxtisas: 5503.02- “Vətən tarixi”**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# AVTOREFERATI

**BAKI – 2014**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Müasir Azərbaycan tarixi» şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
Əməkdar elm xadimi,
AMEA-nın müxbir üzvü,
Dövlət Mükafatı Laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru,
professor **H. C. Əlibəyli**

Tarix üzrə fəlsəfə doktoru,
dosent **S. F. Ruintən**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin, "Azərbaycan Tarixi" kafedrası

Müdafiə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «____»____________ 2014-cü il tarixli iclasında, saat _________ keçiriləcəkdir.

Ünvan: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "___" ___________ 2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
tarix üzrə fəlsəfə doktoru: **C.Ə.BƏHRAMOV**

## I. DİSSERTASIYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Dünya ölkələri içərisində özünün qədim dövlətçilik tarixi ilə seçilən Azərbaycan yaşadığı bütün tarixi mərhələlərdə dünyanın irili-xırdalı bir çox ölkə və xalqları ilə müxtəlif səviyyəli hərbi-siyasi, iqtisadi və mədəni-mənəvi münasibətlərdə olmuşdur ki, bu da onun həmin sahələrdə diferensial inkişafı üçün xüsusi məkan mənbələrindən olmuşdur. Qeyd etmək lazımdır ki, tarixi və coğrafi xüsusiyyətlərinə görə həyata keçirilmiş bu münasibətlərin xarakteri, intensivliyi, məzmunu, ümum milli inkişafa təsiri fərqli olmuşdur. Tam əminliklə demək olar ki, tarixin bütün inkişaf mərhələlərində Azərbaycan Respublikasının çoxsahəli münasibətlərdə olduğu ölkələrdən biri, daha dəqiq desək birincisi Türkiyə Cümhuriyyəti olmuşdur ki, bu da iki qardaş xalq və dövlətlər arasındakı tarixi bağlılıqdan irəli gəlir. Azərbaycan Respublikasının Türkiyə ilə müasibətləri tarixində müasir dövrün hər iki ölkənin mənafeyinə uyğun şəkildə inkişafı, onun öncəki tarixi dövrlərinin obyektiv olaraq yüksək səviyyədə öyrənilməsini qarşıya bir vəzifə və məqsəd kimi qoyur. Demək olar ki, bu münasibətlərin önündə ilk növbədə, məhz mədəni və mənəvi əlaqələr - təhsil sahəsində əlaqələr durur ki, bu da hər iki dövlət üçün mühüm strateji əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan xalqının müstəqil dövlətinin və milli dövlətçiliyinin artıq bərqərar olduğu bir şəraitdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındaki hərtərəfli münasibətlərin, eləcə də mədəni və təhsil əlaqələrinin tarixinin bütün yad və zərərli baxış və yanaşmalardan uzaq, Azərbaycan xalqının milli mənafeyinə, tarixi həqiqətlərə uyğun şəkildə araşdırılıb öyrənilməsi üçün geniş və hərtərəfli imkanlar açılmış və obyektiv şərait yaradılmışdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Müraciət edilən dissertasiya işinin mövzusu əsasən Azərbaycan Respublikasının müstəqillik dövrünü, yəni 1991-2010-cu illəri əhatə edir. Lakin tədqiqatın dolğun elmi mənzərəsini yaratmaq məqsədi ilə XX əsrin 70-80-ci illərində keçmiş SSRİ dövləti tərkibində olmuş Azərbaycan SSR-lə Türkiyə Cümhuriyyəti mədəni əlaqələrinin yığcam şəkildə təhlili də aparılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Qeyd etməliyik ki, bizim müraciət etdiyimiz mövzu indiyədək ayrıca tədqiqat obyekti kimi götürülərək araşdırılıb öyrənilməmişdir. Mövzunun özünəməxsusluğu bir də ondan ibarətdir ki, tədqiqata aid hər hansı bir məsələ onun

mətbuatda işıqlandırılması və arxiv materiallarında əks olunmasına görə iki istiqamətdə araşdırılır və təqdim edilir. Birinci istiqamətdə dövlət müstəqilliyi bərpa olunduqdan sonrakı dövrdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətinin təhsil əlaqələri ilə bağlı aparılmış bir sıra tarixi tədqiqatlar, müxtəlif xarakterli elmi əsərlər işlənib yazılmışdır. Digər istiqamət isə dissertasiya işində əks olunan problemlərin mətbuatda işıqlandırılması məsələsidir.

Qeyd etmək lazımdır ki, disertasiya işinin birinci fəsli Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsindəki əlaqələrinin təşkilinin mahiyyəti və onun inkişafındakı problemlərini əhatə edir və tədqiqatın xronoloji çərçivəsindən çıxmaq şərti ilə əvvəlki dövrlərə də müraciət olunur. Odur ki, bu fəsildə qarşıya qoyulan məsələlər araşdırılarkən elmi monoqrafik ədəbiyyatlardan, məqalələrdən yetərincə istifadə edilmişdir ki, bu da dissertasiya işinin yazılması prosesinə müsbət təsir göstərmişdir. Mövzunun öyrənilməsində Azərbaycan Respublikasında olan ədəbiyyatlarla yanaşı Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Avropa dövlətləri və ABŞ-dan olan müəlliflərin də yazmış olduğu bir sıra elmi əsərlərə[1] də

---

[1] Politikada Yeni Alanlar, Yeni Bakışlar. Der: Sönmezoğlu Faruk, Der yayınları, Istanbul 1998; Are Tayyar, Uluslararası İlişkiler Teorileri, Alfa yayınları, Istanbul, 2002; Yenə onun, Uluslararası İlişkilər və Dış Politika. Alfa yayınları, Istanbul, 1999; Alan Makovskiy, Sayyari Sabri, Türkiye'nin Yeni Dünyası. Türk Dış Politikasının Değişen Dinamikleri, Istanbul, Bağlam Yayınçılık, 2002; Demir Ali Faik, Türk Dış Politikası Perspektivindən Güney Kafkasya, Bağlam Yayınçılık, 2003; Aydın Selim, Eğitime Farklı Bir Bakış, Nil Yayınları, Izmir, 1993; Aydın Mustafa, "Kafkasya ve Orta Asyada İlişkiler" Türk dış Politikası, Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar, Istanbul, İletişim Yayınları, cilt 28, 2005; Aslanlı Araz, Haydar Aliyev dönemi Azerbaycan Dış Politikası, Ankara, Platin Yayınları 2005; Atmaca Tayfun, Yirminci Yüzyılın Sonunda Azerbaycan ve Türkiye Münasebetleri (1993-1999), Ankara, 1999; Avşar Zakir; Yeni Bir Yüzyıla Doğru Türkiye ve Türk Cümhuriyyetleri İlişkileri, Ankara, Vadi Yayıncılık, 1994; Behar Buşra, Türkiye ve Azerbaycan'da Türkçülük "Avrasya Etüdleri" sayı:3, 1996; Berkok İsmail, Tarihte Kafkasya, Istanbul, 1998; Oran Baskın, Türk Dış Politikası, Kurtuluş Savaşından Bugüne, Olgular, Bilgiler, Yorumlar, 2 ciltde, Istanbul, Bağlam Yayıncılık, 2002; Çay Abdulhaluk; "Kafkasyadaki Gelişimler ve Türkiye", Yeni Türkiye, sayı 16, 1997; Demir Ali Faik, Türkiye'nin Güney Kafkasya'ya Yönelik Politikası, Türk Dış Politikasının Analizi, Istanbul, Der Yayınları, 2004; Karasu N, Yeni Türk

müraciət olunmuşdur və həmin tədqiqat əsərlərindən bəziləri təhlil olumuşdur.

**Tədqiqatın mənbə bazası.**Yuxarıda da qeyd edildiyi kimi mövcud dissertasiya işi ərsəyə gələnə qədər Azərbaycan milli tarixşünaslığında sırf olaraq Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqələrə dair geniş spektrdə heç bir tədqiqat əsəri yazılmamışdır.

Qeyd etmək lazımdır ki, bu istiqamətdə, yəni türkdilli ölkələrlə beynəlxalq əlaqələrə aid bir monoqrafiya[1] , Türkiyə Cümhuriyyəti ilə siyasi və mədəni əlaqələrə dair isə bir neçə tədqiqat əsəri[2] yazılmışdır. Lakin xüsusi olaraq təhsil əlaqələrinə dair elmi araşdırma aparılmamış və elmi əsər yazılmamışdır. Ancaq qeyd etmək lazımdır ki, biz qarşıya qoyduğumuz problemi araşdırarkən həmin elmi işlərə müraciət etmiş, varislik ənənələrinə sadiq qalaraq həmin işlərlə yaxından tanış olmuşuq.

Dissertasiyanın yazılıb başa çatmasında Azərbaycan Respublikası dövlət və hökümət xadimlərinin, əsasən də həmin dövrdə respublikaya rəhbərlik etmiş şəxslərin çıxışlarından ibarət toplulardan istifadənin böyük köməyi olmuşdur. Belə ki, bu toplular mövcud tədqiqat işinin ideya-metodoloji istiqamətinin müəyyənləşdirilməsində, dövrün xarakterinin verilməsində xüsusi rol oynamışdır. Nəhayət qeyd etmək lazımdır ki, məhz qeyd olunan bu toplular vasitəsilə tədqiqat dövründə Azərbaycan Respublikasının xarici fəaliyyət kursunu müəy-

---

Çağdaş Dış Politikası, Istanbul, Bara Yayınları, 1994; Kurtuluş Berrak, Türkiye ile Türk Cümhuriyetleri Eğitim ve Bilim Alanlarında İşbirliği // Avrasya Etüdleri, say.17, Ankara, 2000

[1] Əhmədov Ə.X. Azərbaycan beynəlxalq münasibətlərdə ( Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri) Elm və Təhsil, Bakı, 2009.

[2] Abdullayev M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri ( XX əsrin 90-cı illəri) Bakı, 2000. Yenə onun. Azərbaycan-Türkiyə mədəni əlaqələri yeni mərhələdə // Azərbaycan tarixi üzrə məruzələr məcmuəsi, Bakı, 1992, s. 161-162; Yenə onun. Sovet-Türkiyə iqtisadi, elmi-texniki və mədəni əlaqələrində Azərbaycanın iştirakı (1971-1991), Tar. Elm. Nam. alim. dər. almaq üçün təq. olunmuş dis. Avtoreferatı, Bakı, 1994; Atmaca T. XX əsrin axırlarında Azərbaycan-Türkiyə münasibətləri...Elm. nam. alim. dər. almaq üçün təqdim olunm. dissertasiya, Bakı, 2007; Cahangirli C. Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri, Araz 2006; Hüseynov E.K. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri ( 1991-1995-ci illər), Tar.elm.nam. alimlik dər. almaq üçün təq. olun. dis. Bakı, 2000 və s.

yənləşdirmək, yaradılmış əlaqələrin istiqamətlərini tam aydınlığı ilə müəyyən etmək mümkün olmuşdur.

Müstəqillik dövründə Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin yaradılması və inkişaf etdirilməsini konkret materiallar əsasında təhlili sahəsində AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudovun yazmış olduğu elmi-tədqiqat əsərləri[1] xüsusi diqqətə layiqdir. Bu əsərlərdə müstəqillikdən sonra Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası konkret materiallar əsasında, yüksək səviyyədə təhlil edilmişdir.

Tarixçi alim Ə. X. Əhmədovun yazmış olduğu monoqrafiya[2] müstəqillikdən sonra Azərbaycan dövlətinin qardaş türkdilli ölkələrlə siyasi, iqtisadi və mədəni sahədə beynəlxalq əlaqələrinin yaradılması və inkişafı məsələləri, onun problemləri və prioritetləri konkret materiallar əsasında tədqiq olunmuşdur. Lakin, bu monoqrafiyada mövcud dissertasiya işinin mövzusu olan Türkiyə Cümhuriyyəti ilə təhsil əlaqələrinə xüsusi olaraq yanaşılmamışdır. Belə ki, bu problemə ümumi xarakterli materiallar əsasında baxış keçirilmiş və bizim tədqiq etdiyimiz dövrü tam əhatə etmir. Bununla belə monoqrafiya bizim yazdığımız dissertasiya işinin ərsəyə gəlməsində böyük əhəmiyyətə malikdir.

Fərqanə Hüseynovanın monoqrafiyasında[3] isə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin təşkili və inkişaf xüsusiyyətləri konkret faktlar əsasında öyrənilsə də qardaş ölkələr arasında kankret olaraq təhsil əlaqələrinin tarixi öyrənilməmişdir.

Azərbaycan müasir tarixşünaslığında Azərbaycan Respublikası-Türkiyə Cümhuriyyəti əlaqələri ilə bağlı yazılmış əsərlərdən biri də D. Səmədovun monoqrafiyasıdır.[4] XX əsrin 90-cı illərində Azərbaycan Respublikası-Türkiyə Cümhuriyyəti elmi-mədəni əlaqələri adlanan bu

---

[1] Mahmudov Y. Azərbaycanın dövlətçilik və parlamentçilik ənənələri tarixindən, Bakı, Azərnəşr, 2001; Yenə onun. Azərbaycan diplomatiyası tarixi, Bakı, 2006.

[2] Əhmədov Ə.X. Azərbaycan beynəlxalq münasibətlərdə ( Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90) Bakı Elm-Təhsil 2009

[3] Hüseynova F. Müstəqillik dövründə Azərbaycan- Türkiyə əlaqəlarinin kulturoloji aspektləri (elm,təhsil,mədəniyyət), Bakı, Nurlan, 2007

[4] Səmədov D.A. XX əsrin 90-cı illərində Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələri. Gəncə, poliqrafiya, 2004

əsərdə müstəqilllikdən sonra bu iki dövlət arasında təşkil olunaraq inkişaf etdirilmiş elmi və mədəni əlaqələr ümumiləşdirilmiş materiallar əsasında öyrənilmişdir. Belə ki, bu əsər bizim işlədiyimiz dissertasiya işinin yazılmasında xüsusi əhəmiyyətə malik olsa da bu mövzunu əhatə etmir.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətinin mədəni əlaqalərinin tədqiqi istiqamətində yazılmış olan əsərlərdən biri də E. Hüseynovun tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi disertasiya əsəridir[1]. Qeyd etmək lazımdır ki, bu tədqiqat əsəri müstəqillikdən sonra Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti əlaqələri tarixinin öyrənilməsində təqdirəlayiq işlərdəndir. Lakin, əsər müstəqilliyin ilk beş illik dövrünü əhatə etməklə bizim tədqiqata cəlb etdiyimiz problemin xronologiyasını və mövzusunu tam əks etdirmir. Buna baxmayaraq, E. Hüseynovun namizədlik dissertasiyası əsəri Azərbaycan Respublikasının Türkiyə ilə təhsil sahəsində əlaqələrinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

M.Abdullayevin yazmış olduğu namizədlik dissertasiyası[2] və bir monoqrafiyasını[3] Azərbaycan Respublikasının XX əsrin 70-80-ci illərində, əsasən də SSRİ-nin dağılması ərəfəsində Türkiyə Cümhuriyyəti ilə yaratmış olduğu hərtərəfli əlaqələrin inkişaf tarixinin öyrənilməsində qiymətli töhfə hesab etmək olar. Onun "Azərbaycan-Türkiyə mədəni əlaqələri yeni mərhələdə" adlı elmi məqaləsi[4] müstəqillikdən sonra Türkiyənin Azərbaycan Respublikası ilə müstəqil, mədəni əlaqəlarinin qurulmasına, inkişafına onun formalaşmasına və istiqamətlərinə həsr olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, bu tədqiqat əsərlərində Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti əlaqələrində ümumi konteksdə danışılır, yəni

---

[1] Hüseynov E. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995). Tar. elm. namiz. Elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya. Bakı 2000

[2] Abdullaev M. Sovet-Türkiyə iqtisadi, elmi-texniki və mədəni əlaqələrində Azərbaycanın iştirakı (1971-1991). Tar. elm. nam. alim. dərəc. almaq üçün təqdim edilmiş dis. Avtoreferatı, Bakı, 1994.

[3] Abdullayev M. Azərbaycan-Türkiyə əlaqələri, Bakı, Mütərcim, 1998.

[4] Abdullayev M. Azəbaycan-Türkiyə mədəni əlaqələri yeni mərhələdə. // Azərbaycan tarixi üzrə məruzələr məcmuəsi, Bakı, 1994, s.161-162.

bizim tərəfimizdən tədqiqata cəlb olunmuş təhsil əlaqələri haqqında sistematik heç bir material verilməmişdir.

Bizim tərəfimizdən tədqiq olunan problemin araşdırılmasında Türkiyəli müəlliflərin də yazmış olduğu elmi-tədqiqat işləridə böyük əhəmiyyət daşımışdır. Belə müəlliflərdən biri də Mehmet Saraydır. Onun yazmış olduğu elmi tədqiqat işində[1] XX əsrin sonlarında yaranmış türkdilli dövlətlərin Türkiyə Cümhuriyyəti ilə hərtərəfli beynəlxalq münasibətlərindən bəzi məqamlar tədqiq edilərək öyrənilmişdir. Bu əsərdə Azərbaycan Respublikasının müstəqillik dövrü tarixinə və xarici siyasətinə də yer ayrılmışdır. Lakin, bu əsərdə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqələri ayrıca tədqiqat obyektinə çevrilməmiş, yalnız səthi materiallar verməklə kifayətlənilmişdir.

Türkiyəli digər müəllif Tayyar Sadıkların yazmış olduğu əsərdə[2] SSRİ-nın dağılmasından sonra yaranmış Türkdilli dövlətlərin Türkiyə Cümhuriyyəti ilə yaratmış olduğu əlaqələr və dünya dövlətlərinin bu əlaqələrə münasibətləri və s. məsələlər şərh edilməkdədir. Bu əsərdə müxtəlif dövrlərdə mövcud olmuş Türkiyə Cümhuriyyəti Azərbaycan Respublikası əlaqələrindən də danışılmışdır. Lakin, bu əsərdə müstəqillikdən sonra Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti ilə təhsil əlaqələrindən demək olar ki, danışılmır. Bununla belə bu əsər bizim tərəfimizdən yazılan dissertasiya işinin tamamlanmasında müəyyən əhəmiyyətə malik olmuşdur.

Yuxarıda adları sadalanan və məzmununun qısa təhlili verilmiş elmi işlərin bizim yazdığımız dissertasiya işi üçün müəyyən əhəmiyyətə malik olmasına baxmayaraq bu əsərlər tədqiqat işi üçün əsas mənbə ola bilməz. Belə ki, bu əsərlər konkret olaraq bizim tədqiq etdiyimiz mövzunu əks etdirmir. Belə ki, həmin əsərlərdən yalnız mövzuya aid bir sıra materiallar götürmək mümkün olmuşdur. Odur ki, biz bu əsərlərin bizim iş üçün əhəmiyyətini inkar etmirik. Belə fikirləşirik ki, mövcud dissertasiya işinin yazılmasında bu əsərlərin böyük əhəmiyyəti olmuşdur.

Beləliklə mövcud tarixşünaslığın təhlili göstərir ki, Azərbaycan

---

[1] Saray Mehmet, Türkiye ile Türk Cümhuriyetleri ve Türk Toplulukları Arasında İlişkiler ve Faaliyetler, Ankara, 1993.

[2] Sadıklar Tayyar, İkibinli yıllar. Dünya ve Türkiye, Ankara, T.C. Kültür Bakanlığı, 1995

Respublikasının Türkiyə Cümhuriyyəti ilə beynəlxalq əlaqələri Azərbaycan dövlətinin xarici siyasətinin qarşısında duran prioritet məsələlərdən biri olmuşdur və bu əsərlər müxtəlif səviyyələrdə aparılan araşdırmaların nəticəsi olaraq işıq üzü görmüşdür. Lakin qeyd etmək lazımdır ki, təqdim olunan mövcud dissertasiya işinin mövzusu tarixşünaslıqda indiyədək ayrıca bir araşdırma obyekti olmamışdır.

**Dissertasiya işinin mənbə bazası**. Dissertasiya işi hazırlanarkən müxtəlif mənbələrdən istifadə olunmuşdur. Və həmin mənbələrdən əldə edilmiş faktlar təhlil olunaraq tənqidi surətdə elmi dövriyyəyə daxil edilmişdir. Lakin qeyd etmək lazımdır ki, dissertasiya mövzusu üzərində araşdırmalar aparılarkən Azərbaycan mənbələrinə geniş şəkildə istifadə olunmuşdur. Bu mənbələr içərisində isə arxiv, əsasən də cari arxiv materialları başlıca yer tutur. Bundan əlavə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonra qardaş Türkiyə Cümhuriyyəti ilə aralarında bağlanmış olduqları müqavilə və sazişlərdən, imzalamış olduqları bəyanat və protokollardan yetərincə istifadə olunmuşdur. Hansı ki, bu sənədlər Azərbaycan Respublikasının müvafiq nazirlikləri və hakimiyyət strukturlarının cari arxivlərində saxlanmaqla yanaşı, bir hissəsi kütləvi mətbuatda işıqlandırılmışdır. Belə ki, bu sənədlərin təhlil edilməsi Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqələrinin təşkil edilməsi, inkişafı, gələcək perspektivləri və problemlərinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malik olmuşdur.

Tədqiq edilən dövrdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında qurulmuş təhsil əlaqələrinin araşdırılaraq öyrənilməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin Arxivinin[1], Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin[2], Azərbaycan Respublikası Milli Elmlər Akademiyası "Xarici əlaqələr" şöbəsinin cari arxivinin[3], Azərbaycan Respublikası Xarici Işlər Nazirliyinin cari arxivinin[4], Azərbaycan Respublikası "Xarici Əlaqələr" şöbəsinin cari arxivinin[5]

---

[1] Azərbaycan Respublikasının Milli Məclisinin arxivi.
[2] Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi.
[3] Azərb. Resp. MEA-sı "Xarici əlaqələr" şöbəsinin cari arxivi.
[4] Azərb. Resp. XIN cari arxivi
[5] Azərb. Resp. TN-i "Xarici əlaqələr" şöbəsinin cari arxivi

və b. arxivlərin materiallarından geniş istifadə edilmişdir. Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə hərtərəfli qarşılıqlı əlaqələrinə və onun inkişafına dair zəngin materiallar saxlanılmaqdadır.

Tədqiqi ilə məşğul olunan problemin araşdırılmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin də materialları xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, dissertasiya işinin yazılmasında Statistika Komitəsinin nəşr etdirdiyi külliyyatlardan[1] geniş istifadə olunmuşdur.

Dissertasiya işinin hazırlanmasında dövrü mətbuat orqanlarından: "Azərbaycan", "Xalq", "Azərbaycan müəllimi", "Respublika", "Şərq Qapısı" qəzetlərinin; "Qanun", "Dirçəliş-XXI əsr", "Tarix və onun problemləri" və s. jurnalların, eləcə də adı çəkilən bu dövrü mətbuat orqanlarında çap olunmuş məqalə və materialların çox böyük əhəmiyyəti olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı təhsil əməkdaşlığının tədqiq edilərək öyrənilməsində Türkiyə Cümhuriyyətində işıq üzü görmüş mətbuat orqanlarından[2], eləcə də beynəlxalq səviyyəli nəşrlərdə[3] çap olunmuş materiallardan əhəmiyyətli səviyyədə istifadə olunmasına çalışılmışdır. Xüsusi ilə qeyd etməliyik ki, bütün bu mənbələr tədqiq olunaraq öyrənilərkən onlarda əks olunan materiallara tənqidi yanaşılmış, qarşılıqlı müqayisələr və təhlillər aparılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində ən prioritet istiqamət olan Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq, eləcə də təhsil sahəsindəki əlaqələrin öyrənilməsi həm elmi, həm də geniş ictimaiyyət üçün əhəmiyyətli sahə təşkil etdiyinə görə mövcud tədqiqat əsərinin

---

[1] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1995-ci il üçün məlumat kitabı, Bakı, Səda, 1996; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1996-cı il üçün məlumat kitabı, Bakı, Səda, 1997; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1997-ci il üçün məlumat kitabı, Bakı, Səda, 1998; Azərbaycan Respublikası Statistika Komitəsinin 2000-ci il üçün məlumat kitabı, Bakı, Səda, 2001; Azərbaycan Respublikası Statistika Komitəsinin 2010-cu il üçün məlumat kitabı, Bakı, Səda, 2011

[2] "Akşam", "Milliyet", "Zaman" qəzetləri.

[3] "Центральная Азия и Кафказ" jurnalı.

əsas prinsipini Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqələrinin mütəşəkkil olaraq inkişaf etdirilməsinin forma və istiqamətləri, bu əməkdaşlığın inkişafı üçün əhəmiyyətli təkliflərin gələcək fəaliyyətdə təkrar edilməsi üçün buraxılmış səhvlərin üzə çıxarılması konteksindəki əhəmiyyəti siyasi-tarixi və praktik baxımdan araşdırılaraq öyrənilməsini təşkil etməkdədir.

Odur ki, müəllifin qarşısında duran məqsədə çatmaq üçün dissertasiyada aşağıdakı konkret vəzifələrin həll olunmasına çalışılmışdır:

- Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında quruIaraq inkişaf etdirilməkdə olan təhsil sahəsindəki əməkdaşlığın prinsip və mahiyyətinin öyrənilməsinə;

- Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti arasındakı təhsil sahəsində əməkdaşlığın siyasi və hüquqi bazasının təşkili məsələlərinin araşdırılması;

- Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı təhsil əlaqələrinin səciyyəvi cəhətlərini və prespektivlərini müəyyənləşdirmək;

-Ümümtəhsil sahəsində əlaqələr və bu əlaqələrin əhəmiyyətini təhlil edərək öyrənmək;

-Ali təhsil sahəsində əməkdaşlıq işinin təşkili və onun daha da inkişafının şərtləndirilməsi işini açıb göstərmək;

- Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təşəkkül tapmış qonşuluq və qardaşlıq münasibətlərinin regionda sülhün və sabitliyin təmin olunmasına, beynəlxalq terrorizm və seperatçılığa qarşı mübarizə aparmaq, beynəlxalq təşkilatlar tərəfindən təsbit olunmuş prinsiplərə əsasən bir-birinin suverenliyinə, ərazilərinin toxunulmazlığına hörmətlə yanaşmaq və bu kimi normalara əməl etməyin əhəmiyyətini elmi əsaslarla sübut edilməsinə;

- Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında gələcəkdə də belə əlaqələrin faydalı olaraq daha da inkişaf etdirilməsində yardımçı ola bilərək təcrübi tövsiyələr irəli sürülməsində və s.

**Dissertasiyanın metodoloji əsası.** Mövcud dissertasiya işinin metodoloji əsasını ümumilikdə tarix elmində qəbul edilmiş elmi və tarixi müqayisəli metodla yanaşı tarixi hadisələrə obyektivcəsinə yanaşma prinsipi təşkil edir. Və mənbələr, materiallar janr və məzmununa görə sistemləşdirilərək məntiqi və xronoloji ardıcıllıqla təhlil edilmiş-

dir. Nəhayət dissertasiyanın yazılmasında müasir beynəlxalq münasibətlərə dair mövcud nəzəriyyələrə və tədqiqat işlərinə müraciət olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

1. Mövcud dissertasiya əsəri 1991-2010-cu illərdə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əməkdaşlıq tarixinin müasirlik nöqteyi-nəzərdən yeni konsepsiya əsasında öyrənən ilk təyinat işidir.

2. Tədqiqat işində Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqəsinin təşkil edilərək inkişaf etdirilməsini zəruri edən amillər işıqlandırılmışdır.

3. Nəhayət, dissertasiya işinin yazılmasında istifadə olunmuş, mənbələrdən götürülmüş çoxsaylı faktiki rəqəmlərin və materialların demək olar ki, böyük əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işində öz əksini tapmış elmi və nəzəri yekunlar, təhlil olunmuş materiallar və ümumiləşdirmələr Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətində, beynəlxalq münasibətlərə aid mövzuların tədqiqi sahəsində inkişaf yollarının möhkəmləndirilməsi və s. sahələrdə istifadə oluna bilər və edilməlidir:

-Azərbaycan Respublikasının beynəlxalq əlaqələri tarixinin, Türkiyə Cümhuriyyəti, ümumiyyətlə türkdilli ölkələrlə münasibətlər tarixinin və yaxud bu konteksdə yazılacaq ümumiləşdirici tədqiqat əsərlərinin yazılmasında;

-Azərbaycan Respublikasının beynəlxalq münasibətlər tarixinin yazılmasında;

-Beynəlxalq münasibətlərin təşkili və inkişaf etdirilməsində;

-Mədəni, humanitar və təhsil əlaqələrinin yaradılması və genişləndirilməsi sahəsində;

-Ali məktəblərin tarix və beynəlxalq münasibətlər tarixinə dair seçmə kursların təşkilində;

-Azərbaycan dövlətinin xarici siyasət üzrə proqramlarını həyata keçirən bütün idarə və təşkilatların fəaliyyətlərində və s.

Ən nəhayət isə qeyd etməliyik ki, tədqiqatın materialı və nəticələri Azərbaycan-Türkiyə münasibətlərinin, əsasən də təhsil əlaqələrinin daha da zənginləşməsi üçün çox faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA-nın A. Bakı-

xanov adına Tarix İnstitutu nəzdində yaradılmış Tarix Problem Şurasında təsdiq edilmiş və həmin institutun "Azərbaycan müasir tarixi" şöbəsində işlənib hazırlanmış və müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları məqalə və tezislər şəklində Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Qazaxıstan Respublikasında nəşr olunan müxtəlif elmi məcmuələrdə dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi; giriş, 3 fəsil, 8 yarımfəsil, 2 yarımbölmə, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş"ində mövzunun aktuallığı əsaslandırılır, tarixi-xronoloji çərçivəsi göstərilir, mövzunun öyrənilmə dərəcəsi, tarixşünaslığı və mənbə bazası təhlil edilir, araşdırmanın məqsəd və vəzifələri müəyyənləşdirilir, metodoloji əsası, elmi yeniliyi, elmi-nəzəri və əməli əhəmiyyəti qeyd edilir və nəhayət təqdir olunması və quruluşu haqqında lazımlı məlumatlar verilir.

"Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində qarşılıqlı əlaqələrinin mahiyyəti, təşəkkülü və inkişaf problemləri" adlanan birinci fəsildə eyni yüzillikdə təkrarən ikinci dəfə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının bu haqq işində qardaş Türkiyənin yaxından köməkliyi, bütün sahələrdə olduğu kimi, iki dövlət arasında təhsil sahəsində də əlaqələrin qurulması, inkişaf prespiktivləri və s. problemlər haqqında ətraflı danışılmaqdadır.

"Təhsil sahəsində əlaqələrin milli-tarixi kökləri və siyasi aspektləri" adlanan yarımfəsildə hələ XX əsrin 20-ci illərində Sovet Rusiyasının müstəmləkəsi altına düşdüyü zamandan bu yana digər sahələrdə olduğu kimi təhsil sahəsində də Azərbaycan Respublikasının haqq işinin Türkiyə tərəfindən daim müdafiə olunması həmin proseslərdə yaxından köməklik göstərməsi məsələsi yığcam şəkildə təhlil edilərək həmin münasibətlərin bir elmi mənzərəsi yaradılmışdır. Məhz bu yarımfəsildə qeyd edilir ki, Azərbaycan Respublikası Sovet Rusiyasının təsir dairəsinə düşdükdən sonra da Türkiyə Cümhuriyyəti daima Azərbaycan Respublikasının taleyi ilə maraqlanmış, nə vaxtsa onun azad olacağına inanmış və ona hazır olmağı özü üçün bir vəzifə

olduğunu müəyyənləşdirmişdir. Belə ki, Türkiyə Cümhuriyyətinin yaradılmasının onuncu ildönümündə təşkil olunmuş tədbirdə çıxış edən M. K. Atatürk demişdir: ”Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var, lakin, sabah nə olacağını bu gün heç kəs müəyyən edə bilməz. Eyni ilə Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu qonşuluğun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq yalnız o günü gözləmək deyildir. Hazırlaşmaq lazımdır. Millətlər buna necə hazırlaşırsa - mənəvi körpüləri əsas tutaraq - dil bir körpüdür... Tarix bir körpüdür... Köklərimizə enməli və zəngin tariximiz içərisində bütövləşməliyik. Onların bizə yaxınlaşmaqlarını gözləmədən özümüz onlara yaxınlaşmalıyıq”. [1]

Qardaş Türkiyə Cümhuriyyəti Azərbaycan xalqına və dövlətinə daima yaxından köməklik göstərərək, müstəqilliyinin möhkəmləndirilməsində yardımçı olmuşdur. Hətta Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra da Azərbaycan hər bir zaman Türkiyənin dəstəyini ala bilmiş, onunla bir sıra sahələrdə əlaqələrini davam etdirə bilmişdir. Lakin, bütün bu səylərə baxmayaraq daha sonrakı dövrdə SSRİ-nin yeritdiyi xarici siyasətin nəticəsi olaraq Azərbaycan Respublikasının Türkiyə ilə münasibətləri kəsilmişdir. Bolşevik hökümətinin əsas niyyəti bu qardaş xalqları bir-birindən uzaqlaşdırmaq olduğundan, o, özünün xarici siyasətində ümumtürk birliyini sarsıtmağı özünün məqsədi qəbul etmiş və bu siyasəti davam etdirmişdir.

Yarımfəsildə XX əsrin 70-80-ci illərində siyasi-inzibati rejimin yaratdığı çətinliklərə baxmayaraq Azərbaycan Respublikasının Türkiyə ilə münasibətlərində xeyli dəyişikliyin olduğu qeyd edilir. Belə ki, SSRİ-nin tərkibində olan müttəfiq respublikalara beynəlxalq əlaqələrin bəzi sahələrində münasibətlər qurmağa icazə verildiyindən Azərbaycan da Türkiyə ilə münasibətlərində xeyli dəyişikliyin, əsasən də mədəni sahədə əlaqələr sahəsində dəyişikliklərin olduğu qeyd edilir. Məhz elə bu konteksdən də Azərbaycan-Türkiyə

---

[1] Atatürk'ün Söylem ve Demeçlerinin Konular İndeksi, Hazırlayan: Doç. Dr. Mehmet Ensile, Ankara, Atatürk Araştırma merkezi, 1999, s.81

münasibətlərində xeyli fəallaşma olmuşdur.

Yarımfəsildə çox düzgün olaraq qeyd edilmişdir ki, Sovet dövründə Azərbaycan Respublikasının xarici əlaqələrə cəlb olunmasının əsas səbəblərindən biri respublikanın elmi-texniki, mədəni, eləcə də iqtisadi potensiala sahib olması olmuşdur. Beləliklə qeyd etmək lazımdır ki, XX əsr boyunca təşkil olunmuş Azərbaycan-Türkiyə əlaqələri qardaş xalqlar arasında yaranmış geniş əməkdaşlıq spektrini özündə birləşdirərək, gələcəkdə də bu əlaqələrin inkişaf etdirilməsi zərurətini meydana çıxarmışdır.

Bu fəsilin "Təhsil sahəsində əməkdaşlığın siyasi-hüquqi bazasının təşkili və onun təməl prinsipləri" adlanan ikinci yarımfəsilində müstəqillik dövründə Azərbaycanla Türkiyə arasında yaradılmış təhsil əlaqələrinin siyasi-hüquqi bazasının təşkili və bu əlaqələrin təməlində duran əsas prinsiplərin elmi cəhətdən dəyərləndirilməsi məsələsi öz əksini tapmışdır.

Yarımfəsildə çox düzgün qeyd olunur ki, vətəndaşların intellektual və mədəni səviyyəsinin yüksəlməsində təhsil mühüm rol oynayır ki, onun daha da zənginləşməsi üçün dünyanın inkişaf etmiş digər təhsil sistemləri ilə əlaqəsi çox vacib bir məsələdir. Odur ki, Azərbaycan dövləti, təhsilə qayğısını artıraraq onun daha da inkişafı üçün beynəlxalq əlaqələri genişləndirib inkişaf etdirmək hakimiyyət strukturları qarşısında bir vəzifə kimi qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, təşkil edilmiş siyasi-hüquqi baza əsasında yaradılmış mədəni, əsasən də təhsil əlaqələri Azərbaycanla Türkiyə arasında yaradılmış bütün əlaqələr fonunda ən zəngin və inkişaf etdirilmiş sahədir. Belə ki, yeni dövrün xarakter və xüsusiyyətlərini nəzərə alaraq demək olar ki, təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi bu iki qardaş xalq üçün çox əhəmiyyət kəsb etməkdədir. Qətiyyətlə demək olar ki, Azərbaycanla Türkiyə arasındakı təhsil əlaqələri yarandığı gündən böyük inkişaf yolu keçmiş və həmin əlaqələrin nəticələri bu gün də açıq-aydın görünməkdədir.

Yarımfəsildə çox düzgün olaraq qeyd edilir ki, Azərbaycan xalqı eyni əsrdə ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra Türkiyənin rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş, hətta dövlət və hökumət səviyyəsində də bu münasibətlərin daha da dərinləşməsi və intensivləşməsi üçün mühüm hüquqi və lazımi addımlar atılmışdır. Bu baxımdan Türkiyənin dövlət başçısı S. Dəmirəlin 1997-ci ilin mayında Azərbaycan prezidenti H.

Əliyevlə görüşündə dediyi sözləri qeyd etmək yerinə düşərdi: "Azərbaycan Respublikasının müstəqilliyini biz öz müstəqilliyimiz qədər qiymətləndirir, onun səylərinə mümkün olan bütün köməkliyi göstərməyi özümüzə borc bilir və bundan şərəf duyuruq".[1]

Yarımfəsildə çox düzgün olaraq qeyd edilir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti Türkiyə Cümhuriyyəti ilə mədəni münasibətlərə girərkən ilk növbədə təhsil sahəsində əlaqələrin təşkilinə diqqət yetirmişdir. Qeyd etmək lazımdır ki, təhsil sahəsinin daha önəmli olduğunu nəzərə alaraq ümumiyyətlə[1] türkdilli dövlətlərin təhsil nazirləri bir qayda olaraq birgə toplantılar da keçirmək ənənəsinin əsasını qoymuşdular. Belə ki, həmin toplantılarda dövlətlərdə təhsilin inkişafı sahəsində ortaya çıxan neqativ hallar və həlli mümkün olan problemlərin aradan qaldırılması, qarşıda duran prioritet məsələlərin həlli üçün birgə səy göstərilməsi sahəsində qarşılıqlı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün sazişlər imzalamışdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri içərisində ilk olaraq inkişaf etmiş müasir təhsil sisteminə sahib olan Türkiyə ilə təhsil sahəsində əlaqələr qurmaq üçün müqavilələr bağlayıb və protokol sənədləri imzalamışdır. Belə ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi özünün xarici əlaqələri sahəsində ilk olaraq 1992-ci il 28 fevral tarixində Türkiyə Cümhuriyyətinin Təhsil Nazirliyi ilə qarşılıqlı əlaqələr üzrə ilk sazişini bağlamışdır[1]. Məhz bu kimi razılaşma sənədləri əsasında Türkiyə tərəfi də beynəlxalq aləmə təzə inteqrasiyaya başlamış Azərbaycan dövlətinə təhsil sahəsində əməkdaşlıq işlərinə və onun inkişaf etdirilməsi prosesinə aid məsələlərə daim köməklik göstərmişdir. Belə ki, Türkiyə tərəfi təhsil sahəsində Azərbaycan Respublikasında ediləcək bütün islahatlara yardım göstərməyi, Azərbaycana mütəxəssislər göndərməyi, Azərbaycan üçün mütəxəssislər hazırlamayı; dərs kitablarının hazırlanmasında yardım etməyi və s. bu kimi vəzifələri öz üzərinə götürmüşdür.

Əminliklə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası təhsil sahəsində əməkdaşlıq işini Türkiyə Cümhuriyyəti ilə daha fəal aparmaq məqsədi ilə daima yollar axtarmışdır. Məhz bu istiqamətdə

---

[1] Ruintən S. Azərbaycan Türk dövlətləri ilə siyasi əlaqələr sistemində. Bakı: Azərnəşr, 2005, s.27

[1] Davudoğlu Ahmet. Balkanlardan Kafkazlara Bir Dış Politika Hizmeti: Izlenim dergisi: sayı 15, 1993, s.13

aparılan işlər də müvəffəqiyyətlə həyata keçirilmişdir. Odur ki, respublika iqtisadiyyatının müxtəlif sahələri ixtisaslı kadrla təmin olunmuşdur.

Nəhayət demək olar ki, tədqiq edilən dövrdə Azərbaycan Respublikası ilə Türkiyə Cümhurəyyəti arasında təhsil əlaqələrinin yaradılması və onun daha da inkişaf etdirilməsi üçün siyasi və hüquqi bazanın təşkilinə dair sənədlərin araşdırılması göstərmişdir ki, məhz bu sahədə qardaş dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsi, intensivləşdirilməsi və daha da təkmilləşdirilməsi Azərbaycan və Türkiyə ictimaiyyəti qarşısında duran ən vacib məsələlərdəndir. Bu da Azərbaycan və Türkiyənin birliyi üçün çox vacib amillərdəndir. Odur ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi zamandan iki dövlətli vahid əlifba sisteminin, birgə təhsil proqramı və konsepsiyasının yaradılması xüsusilə başlıca vəzifə olaraq qalmaqdadır. Qeyd edilməlidir ki, bu kimi işlərin həyata keçirilməsində iki qardaş dövlətin kifayət qədər nəzəri və praktiki, eləcə də kadr potensialı vardır.

"Təhsil əlaqələrinin səciyyəvi cəhətləri və problemləri" adlanan üçüncü yarımfəsildə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil əlaqələrinin yaradılması və inkişafının inkişaf xüsusiyyəti və spesifikası konkret materiallar əsasında öyrənilmişdir. Bu yarımfəsildə ilk öncə qeyd edilir ki, Azərbaycan dövləti özünün beynəlxalq fəaliyyətində digər dünya dövlətləri ilə olduğu kimi Türkiyə Cümhuriyyəti ilə də BMT və ATƏT nizamnamələrindən irəli gələn beynəlxalq hüquq normalarına əsaslanmışdır. Belə ki, Azərbaycan beynəlxalq əlaqələrini qurarkən dünya birliyi tərəfindən qəbul edilmiş prinsipləri həmişə rəhbər tutmuşdur. Demək bir tərəfdən də Azərbaycan Respublikasının Türkiyə ilə bütün sahələrdə olduğu kimi təhsil sahəsində də əməkdaşlığın səciyyəvi cəhətləri də mövcuddur ki, bu da hər iki xalqın eyni dili, mədəniyyəti, adət-ənənəsi və s. paylaşması ilə əsaslandırılır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsindəki qarşılıqlı əməkdaşlığı özünəməxsus bir sıra səciyyəvi xüsusiyyətlərlə seçilir. Belə ki, milli soykökün eyniliyi, dil, tarixi və mədəni-mənəvi zənginliyi bu səciyyəvi xüsusiyyətləri şərtləndirir. Bundan əlavə, Azərbaycan və Türkiyə milli və etnik tarixi baxımdan eyniyyət də təşkil edir. Onu da nəzərə almaq lazımdır ki, zaman-zaman dövrün güclü dövlətləri Azərbaycanı işğal altında saxlamışlar. Belə ki, hələ ərəblərin işğalı

dini istiqamətli olsa da xilafət tərəfindən Azərbaycan Respublikasının müxtəlif ərazilərində məktəblərin açılması pedaqoji-maarifçilik işindən bir nümunədir. Daha sonra İranın, Osmanlı və Rusiya İmperiyalarının Azərbaycan uğrunda mübarizələri artdığı bir zamanda da təhsil sahəsində inkişaf dayanmamışdır. Belə ki, məhz sovet hakimiyyəti dövründə Azərbaycan SSR-də təhsil sistemə salınmışdır. Hətta təhsilin daxilində belə sistemləşmə aparılmışdır.[1] Respublikada güclü elmi baza formalaşmışdır. Təəssüf ki, müstəqillikdən sonrakı dövrdə bu baza bəzi sahələrdə dağılmış, bəzi sahələrdə isə əksinə, daha da zəngiləşmişdir. Ayrı-ayrı elmi tədqiqat institutları yaradılmışdır. İxtisaslı mütəxəssislərin sayı durmadan artmışdır. Nəticədə isə bu sahədə inkişaf özünün yüksək pilləsinə qalxmışdır.[2]

Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə təhsil sahəsində əlaqələrində səciyyəvi cəhətlərindən biri də Türkiyənin inkişaf etmiş Qərb təhsil sisteminə sahib olmasıdır. Qeyd edək ki,Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi təhsil sahəsidə də Qərb sisteminə yiyələnmiş və oturuşmuş bir dövlətdir. Odur ki, Azərbaycan Respublikası demokratik dünya birliyinə inteqrasiyasına məhz Türkiyə Cümhuriyyəti ilə hərtərəfli qarşılıqlı əlaqələrdə görürdü və bu da mümkün oldu.

Məhz yuxarıda sadalanan bu amillərin nəticəsi idi ki, Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Türkiyə Cümhuriyyəti dərhal bu müstəqilliyi tanıdı və Azərbaycan Respublikası ilə bütün sahələrdə diplomatik əlaqələr qurmağa başladı. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası-Türkiyə Cümhuriyyəti münasibətləri heç də tamamilə milli-etnik xüsusiyyətlərə əsaslanmır, yəni bu münasibətlər əsasən beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında qurulmuşdur.

"Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətinin təhsil əlaqələrinin təşkili və inkişafında Heydər Əliyevin rolu" adlanan dördüncü yarımfəsildə Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin

---

[1] Yəni təhsil, ümumorta təhsili, orta texniki-peşə təhili və ali təhsil sistemləri kimi formalaşmışdır.

[2] Azərbaycan Respblikası Təhsil Nazirliyinin "Xarici Əlaqələr" şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2010-cu illər v. 231

zəngin ideya irsinin sonrakı nəsillərin mənəvi tərbiyəsinin məzmununun zənginləşməsinə və Azərbaycan Respublikasının türkdilli dövlətlərlə, eləcə də ilk olaraq Türkiyə Cümhuriyyəti ilə hərtərəfli, əsasən də mədəniyyət və təhsil sahəsində əlaqələrinin daha da inkişaf etdirilməsi sahəsindəki fəaliyyətindən bəhs olunur. Yarımfəsildə çox haqlı olaraq qeyd olunur ki, H. Ə. Əliyev hələ sovet dövründə respublika rəhbərliyində olduğu, yəni sovet rejiminin hökmran olduğu bir zamanda Azərbaycan Respublikasının gələcəyinin elmdə, təhsildə və yeni dünya düzümünün tələblərinə uyğun kadr yetişdirilməsində görmüşdür. Belə ki, sovet dövründə H. Əliyev respublikanın yüksək ixtisaslı kadrlara olan ehtiyacının təmin olunması üçün keçmiş SSRİ-nin digər iri sənaye və iqtisadi mərkəzlərindəki universitetlərə təhsil almaq üçün göndərilməsini təşkil etdirmişdir. Məhz bu səbəbdən də respublikada elmi və elmi-pedaqoji kadrların hazırlanması işi xüsusilə yaxşılaşdırılmışdır.

Yarımfəsildə haqlı olaraq qeyd edilir ki, H. Əliyevin müstəqil Azərbaycan Respublikasının rəhbərliyinə gəlişi ilə Azərbaycan təhsilinin qarşısında yeni üfüqlər açılmış, təhsil sistemi hərtərəfli inkişaf etməyə başlamış, yeni pedaqoji fikir formalaşmağa başlamış, həm məzmunca, həm də formaca daha mükəmməl təhsil sistemi yaranmağa başlamışdır. Belə ki, məhz H. Əliyevin hakimiyyətə gəlişindən sonra yeni təhsil islahatları qəbul edilmişdir ki, burada da Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş təhsil sistemləri ilə əməkdaşlığı məsələsi xüsusi yer tutmuşdur. Məhz bu amilə əsaslanaraq Azərbaycan Respublikası Türkiyə Cümhuriyyətinin təhsil sistemi ilə daha sıx əlaqələr yaratmağa meyilli olmuşdur.

Hələ Naxçıvanda olan zaman H. Əliyev Türkiyə Cümhuriyyəti ilə Naxçıvan M.R.-nı bir-birinə birləşdirəcək körpünün quraşdırılmasına başlamışdır. H. Əliyevin bu cürətli hərəkətləri Türkiyə dövləti və onun rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, dəfələrlə ona TBMM-də digər elmi və siyasi toplantılarda çıxış etmək imkanı yaradılmışdır. O, isə bu çıxışlarında dəfələrlə iki qardaş xalq arasında qardaşlıq əlaqələrinin çox güclü olduğunu xüsusi qeyd etmişdir.

"Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə ümumi təhsil sahəsində əlaqələrinin qurulması və inkişafı" adlanan ikinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil ("Azərbaycan Respublikasında türk ümumtəhsil müəssisələrinin təşkili və onların fəaliyyəti") müstəqil Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş təhsil sistemlərindən biri olan Türkiyə təhsil sistemi ilə əlaqə

yaratması və həmin əlaqənin inkişaf etdirilməsinin Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin tərkib hissəsinə çevrilməsindən bəhs edilir. Məhz bu yarımfəsildəki fikirlərin əsas qayəsi budur ki, təhsil sahəsində beynəlxalq mütərəqqi təcrübələrin öyrənilməsi və respublikada tətbiqi milli təhsil sisteminin yaradılması ilə yanaşı, cəmiyyətin yeni ictima-siyasi və iqtisadi sistemə keçidi zamanı meydana çıxan bütün problemlərin həllinə də böyük köməkliklər göstərməkdədir. Ona görə də Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Avropa Təhsil Sisteminin bir parçası olan Türkiyə təhsil sistemi ilə sıx əlaqədar yaratmaq maraqlı olmuşdur. Bunu da qeyd etmək lazımdır ki, xarici əlaqələr sahəsində Azərbaycan Respublikasının ilk müqavilələrindən biri də 1992-ci il 29 fevral tarixində Türkiyə Cümhuriyyəti ilə başlamış müqavilə[1] olmuşdur. İki ölkə arasında təhsil əlaqələri də məhz bu müqavilə ilə başlamış, indiyə qədər qüvvədə olan mövcud rəsmi sənədlərdən irəli gələn sistem əsasında həyata keçirilmişdir.

Qeyd etmək lazımdır ki, ikinci fəsilin birinci yarımfəsili isə özlüyündə iki bölməyə ayrılır. "Türkiyə Cümhuriyyəti Təhsil Nazirliyinə aid ümumitəhsil müəssisələri" adlanan birinci bölmədə Azərbaycan Respublikasında açılmış və dövlət strukturlarına aid təhsil müəssisələrinin təşkili və fəaliyyəti barədə konkret faktiki məlumatlar verilməkdədir. Belə ki, müstəqillikdən sonra Türkiyə Cümhuriyyətinin təhsil işçiləri Azərbaycan Respublikasında həm dövlət, həm də özəl məktəblər açmağa başladı. Açılan təhsil müəssisələrinin özəl və ya dövlət strukturlarına aid olmasına baxmayaraq hər ikisi Respublikanın gələcəyi baxımından böyük əhəmmiyyətə malik olduğu qeyd edilməlidir. Daha sonra qeyd edilir ki, bu Azərbaycan Respublikası vətəndaşlığına və gəncliyinə töhvə edilmiş bir sərvətdir.

Dissertasiyanın ikinci fəsilinin birinci yarımfəsilinin ikinci bölməsi "Qeyri dövlət qurumlarına aid özəl təlim-tərbiyə müəssisələri" adlanmaqla Türkiyə Cümhuriyyəti təhsil sisteminə daxil özəl şirkətlərin Azərbaycan Respublikasında yaratdıqları təhsil ocaqları və onların inkişaf tarixindən bəhs edilir. Bölmədə qeyd edilir ki, Azərbaycan Respublikasında özünün təhsil müəssisələrini açmış ən böyük özəl türk

---

[1] Azərbaycan Respblikası Təhsil Nazirliyinin "Xarici Əlaqələr" şöbəsinin cari arxivi. Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2010-cu illər v. 231

təhsil şirkəti "Çağ" Öyrətim İşlətmələri şirkətidir ki, bu şirkət ilk dəfə 1992-ci il 4 mart tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə bağlamış olduğu Niyyət Protokolundan[2] sonra Azərbaycan Respublikasında iki məktəb açmaqla fəaliyyətə başlamışdır. Hal-hazırda isə bu şirkətin Azərbaycan Respublikasındakı fəaliyyət sferası daha da böyüyərək xeyli genişlənmişdir. Belə ki, bu şirkətin nəzdində olan təhsil ocaqları Azərbaycan Respublikasında yüksək keyfiyyətli təhsil verən müəssisələrindəndir.

"Çağ" Öyrətim şirkətinin fəaliyyət sahəsinin genişlənərək Azərbaycan Respublikası təhsilində özünə xüsusi yer tutması şübhəsiz ki, bir sıra xoş niyyətlər üzərində mümkün olmuşdur. Tədqiqatda qeyd edilir ki, bu niyyətlər Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq körpülərinin qurulmasına nail olmaq; Azərbaycan Respublikasına çağdaş təhsil imkanlarını gətirmək; dövlət müstəqilliyini təzə bərpa etmiş Azərbaycan Respublikasının ayağa qalxaraq möhkəmlənməsi üçün bilikli və yüksək ixtisaslı yeni nəsil yetişdirməyə yardımçı olmaq; müasir düşüncəli insanlar yetişdirmək; hər iki qardaş ölkənin təhsil sistemlərinin sintezində Azərbaycan Respublikasında təhsili daha da inkişaf etdirmək və sair ibarət olmuşdur.

Qeyd etmək lazımdır ki, "Çağ" Öyrətim İşlətmələri şirkəti Azərbaycan Respublikasında öz fəaliyyətinə liseylərin açılması ilə başlamışdır.

Türk Dünyası Araşdırmaları Vəqfi və Dəyanət Vəqfi də Azərbaycan Respublikasında təlim-tərbiyə sahəsində fəaliyyət göstərən ilk özəl türk təhsil qurumlarındandır.

Dissertasiya işindən göründüyü kimi, öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasında Türkiyə dövlətinin təhsil fəaliyyəti günü-gündən böyümüş və Azərbaycan təhsilinin inkişafı, onun dünya təhsil prosesinə inteqrasiyası sahəsində inkar olunmaz xidmətləri olmuşdur. Bunu qeyd etməliyik ki, Türkiyə Cümhuriyyəti təhsil sisteminin həm dövlət, həm də özəl sektorları Azərbaycan Respublikası ilə təhsil sahəsindəki əməkdaşlığın əhmiyyətini tam anlamışlar. Bir daha qeyd edilməlidir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən Türkiyə Cümhuriyyəti təhsil qurumları respubli-

---

[2] Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Xarici əlaqələr" şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2010-cu illər, v236

kanın gələcəyinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Bunlar tərəfindən Azərbaycan Respublikasında çox böyük mədəni və mənəvi kapital qoyulmuşdur. Bu, əsasən Azərbaycan gəncliyi üçün mədəni sərmayədir. Belə ki, hər hansı bir cəmiyyətin təhsil sistemi nə qədər möhkəm olarsa, o cəmiyyətin bu günü və gələcəyi də bir o qədər sağlam və möhkəm olar.

Fəslin ikinci yarımfəslində “Azərbaycan Respublikasında fəaliyyət göstərən türk ümumtəhsil müəssisələrinin uğurları və nailiyyətləri” adlanan Azərbaycan Respublikasında fəaliyyət göstərən türk dövlət, şirkət və qurumlarına aid dövlət və özəl təhsil müəssisələrinin fəaliyyəti və nailiyyətləri konkret materiallar əsasında araşdırılaraq öyrənilmişdir.

Qeyd etməliyik ki, fəsildə Azərbaycan Respublikasının beynəlxalq fənn olimpiadalarında, bilik yarışları və müsabiqələrində iştiraka məhz türk liseylərində təhsil alan şagirdlər vasitəsi ilə qoşulması bu yarımfəsildə öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasını beynəlxalq fənn olimpiadalarında ilk dəfə olaraq 1994-cü ildə Bolqarıstanın Varna şəhərində keçirilən biologiya fənni üzrə olimpiadada “Çağ” Öyrətim İşlətmələri şirkətinin 5 şagirdi təmsil etmiş[1] və ən böyük qələbə ilə (2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışlar) ölkəyə qayıtmışlar.

Yarımfəsildə Azərbaycan Respublikasındakı türk orta ümumtəhsil müəssisələrinin təhsil sahəsindəki müvəffəqiyyətlərinin əsas səbəbləri də açıqlanmaqdadır. Belə ki, təşkilati və pedoqoji kadrların təhsil prosesindəki nizam-intizamı, təhsildə yenilik axtarışında olmaları, şagirdlərin təlim-tərbiyə səviyyəsi ilə daim maraqlanmaları və hətta ölkə universitetlərinin müvafiq fakültələri ilə yaxından əlaqələr quraraq onların zəngin laboratoriya və kabinətlərindən istifadə etmələri bu səbəblərdən bir qismi olaraq göstərilir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasındakı türk orta təhsil müəssisələri Azərbaycan Respublikasının modern dünyaya inteqrasiyası və beynəlmiləlləşməsi prosesində milli ünsürləri qoruyub saxlayaraq müasir dünya inkişafının tələblərini yerinə yetirməkdə oynadığı rolu və bu təcrübənin

[1] Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Xarici əlaqələr” şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2010-cu illər, v498

Azərbaycan üçün önəmli olduğu bir daha təsdiq olunur.

Onu da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında ali məktəblərə tələbə qəbulu ilə məşğul olan TQDK-nın hər il imtahan yekunlarına dair apardığı təhlillər qəbul imtahanlarında ən yüksək nəticələri daha çox məhz türk liseyləri abituryentlərin göstərdiyi meydana çıxır və təqdirlə qeyd edilir. Bu təhlillər nəticəsində xüsusi olaraq qeyd edilmişdir ki, türk litseylərinin müvəffəqiyyət faizi Azərbaycan Respublikası Təhsil Nazirliyinə tabe olan məktəblərinkindən 1,2 - 1,5 dəfə yüksək olmuşdur[1].

Beləliklə, dissertasiyada qeyd edilir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən türk liseyləri milli mənsubiyyətə sahib olmaqla, beynəlxalq keyfiyyətləri özündə daşıya bilən, müasir texnologiyalardan lazımınca istifadə edə bilən, dialoq üçün əsas hədəfləri olan və özünə güvənə bilən bir kadrlar yetişdirdiyini nümayiş etdirir. Belə ki, azərbaycanlı gənclər bu təhsil ocaqlarında formalaşır və xarici dillərə sahib olur ki, məhz bunun köməyilə onlar beynəlxalq aləmə açılan qapıları keçib yarışmalara və layihələrə qatıla bilir.

“Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə ali təhsil sahəsində əlaqələrinin təmsili və inkişafı” adlanan üçüncü fəsil də iki yarımfəsildən ibarətdir. Bu fəsildə iki qardaş dövlətin ali təhsil sahəsində qurmuş olduqları əməkdaşlıq və həmin əməkdaşlığın belə sürətlə inkişafını doğuran və şərtləndirən səbəblərdən bəhs olunur.

Fəsilin birinci yarımfəsilində (“Azərbaycan Respublikasında Türk ali təhsilinin yaradılması və fəaliyyəti”) qeyd olunur ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mədəni, eləcə də təhsil sahəsində əlaqələrin tam müstəqil şəkildə yaradılması və inkişafı Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra başlamışdır. Bu növ əlaqələrin önündə isə cəmiyyət həyatında daha çox əhəmiyyətə malik olan ali təhsil sahəsində əməkdaşlıq dayanır.

Dissertasiyada qeyd olunmuşdur ki, məqsədi və məramı düzgün təsbit olunmuş təhsil ölkəsi üçün rifah tükənməz bir xəzinədir. Dünya təcrübəsinin göstərdiyi kimi özünün inkişaf tarixində təhsilin inkişafına nail olmuş cəmiyyətlər müasir sivilizasiyaya yiyələnə bilmişlər. Daha sonra qeyd edilir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan

[1] Abituriyent jurnalı jurnalı №11-12 2007, s.59

təhsil sahəsində əməkdaşlıq işini həm özünə etnik qohumluğu olan, həm də çağdaş təhsil sisteminə sahib və ən yaxın qonşusu Türkiyə Cümhuriyyəti ilə təşkil etməyə başlamışdır. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil əlaqələrinin inkişafında isə öz fəaliyyətinə görə tarixi rol oynayan "Çağ" Öyrətim İşlətmələri şirkətinin fasiləsiz təhsil komissiyasının ən yüksək pilləsi sayılan "Qafqaz" Universiteti olmuşdur. Hansı ki, bu universitet "Çağ" Öyrətim İşlətmələri şirkəti tərəfindən 1993-cü ildə yaradılmış[2] və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 1995-ci il tarixli 203 saylı qərarı ilə dövlət qeydiyyatından keçmişdir[1].

Bu yarımfəsildə həmçinin "Qafqaz" Universitetinin Azərbaycan Respublikası təhsil sisteminə gətirmiş olduğu yenilikdən və həmin Universitetdə Azərbaycan Respublikası üçün ilk olaraq açılan fakültə və ixtisaslardan geniş söhbət açılır. Qeyd edilir ki, suverenlik və inkişaf yolunu seçmiş Azərbaycan Respublikası üçün bu fakültələrin və orada öyrədilən ixtisasların iqtisadiyyatımız üçün hazırda çox böyük əhəmiyyəti vardır. Cünki, universitet açıldığı gündən etibarən burada suveren Azərbaycan Respublikası üçün tamamilə yeni ixtisaslar üzrə mütəxəssislər yetişdirməyə başlamışdır. Xüsusilə qeyd etmək lazımdır ki, açıldığı gündən Azərbaycan təhsilinə verdiyi bəhrələrə görə də "Qafqaz" Universitetinə 1993-2001-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən pilot ali təhsil müəssisəsi statusu verilmişdir[1]. Daha sonra yarımfəsildə qeyd edilmişdir ki, Azərbaycan təhsil sistemində ilk olaraq "Qafqaz" Universiteti 2008-2009-cu tədris ilindən etibarən tam olaraq "Baloniya" təhsil prosesinə qoşulmuşdur[2].

Bütün bu yuxarıda qeyd olunanlardan belə nəticə çıxarılmışdır ki, "Qafqaz" Universiteti fəaliyyətinə başladığı ilk tədris ilindən etibarən keçirilən qəbul imtahanlarında respublikanın ali məktəbləri içərisində ən çox reytinqə malik özəl ali təhsil müəssisəsi olmuş və olaraq qalır.

---

[2] Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Xarici əlaqələr" şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əməkdaşlığı üzrə iş qovluğu 1991-2010-cu illər, v. 138

[1] Azərbaycan Respublikası Milli Məclisinin "Beynəlxalq əlaqələr" şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əlaqələr üzrə iş qovluğu, 1994-2010-cu illər, v.245.

[2] "Qafqaz" Universitetinin cari arxivi, 1993-2010-cu illər, v. 436

Belə ki, fəaliyyətdə olduğu dövrdə daim yeni və qabaqcıl təhsil texnologiyalarını tətbiq edən universitet çox vacib yeniliklərin həyata keçirilməsində qəti addımlar atmışdır. Belə ki, universitetin müasir dünyanın tələblərinə uyğun olaraq yetişdirdiyi kadrların həm ölkə daxilində, həm də xaricdə Azərbaycan Respublikasını uğurla təmsil etmələri çox böyük nailiyyət olaraq qəbul olunur.

Yarımfəsildə burada qeyd edilir ki, Azərbaycan Respublikasında faəliyyət göstərməyə başlamış türk təhsil ocaqları ölkənin gələcəyi baxımından böyük əhəmiyyət daşıyır. Belə ki, bu məktəblər müasir dünya təhsil səviyyəsində təşkil olunmuş təlim ocaqlarıdır. Belə təhsil ocaqlarından biri də "Türk Dünyası" Araşdırmaları Vəqfinin açmış olduğu "Türk Dünyası" İşlətmə fakültəsidir. Beləliklə, bu təhsil müəssisəsi qardaş olan iki dövlət arasında təhsil əlaqələrinin genişlənməsi, "dildə, fikirdə və işdə birlik" təməl fəaliyyətidir. Mətndə qeyd olunduğu kimi, fakültə 1992-ci ildə təşkil olunmaqla Azərbaycan Respublikasında təhsil sisteminin inkişafı və onun dünya təhsil prosesinə inteqrasiyası və Azərbaycan Respublikası iqtisadiyyatının inkişafında mühüm rol oynayacaq mütəxəssis kadrların hazırlanması istiqamətində əhəmiyyətli dərəcədə işlər görmüşdür.

Azərbaycan Respublikasında fəaliyyət göstərən türk ali təhsil müəssisələrindən biri də Türkiyə Dəyanət Vəqfinin Bakı Dövlət Universitetinin nəzdində açmış olduğu İlahiyyat fakültəsidir. Fakültə vəqflə BDU arasında 30 iyun 1992-ci il tarixində imzalanmış razılıq protokoluna əsasən 1992-1993-cü tədris ilindən etibarən fəaliyyət göstərir[1]. Yarımfəsildə qeyd edilir ki, bu fakültənin açılmasında məqsəd kommunist rejimindən imtina etmiş, milli və dini adət-ənənələrini unutmaq üzrə olan Azərbaycan xalqının bu baxımdan təhsil ehtiyaclarını ödəməkdən ibarətdir. Belə ki, bu fakültədə dünyəvi elmlərlə yanaşı dini elmlərin də tədrisinə üstünlük verilir.

Adı çəkilən yarımfəsildə qeyd olunmaqdadır ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının təhsil sisteminin inkişaf edərək dünyanın müasir təhsil sistemlərinə inteqrasiyası və ölkənin lazımi ixtisaslı kadrlarla təmin olunması işində Türkiyə Cümhuriyyətinə məxsus və respublika da açılmış ali təhsil qurumlarının çox

---

[1] Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Xarici əlaqələr" şöbəsinin cari arxivi, Türkdilli ölkələrlə əməkdaşlığı üzrə iş qovluğu 1991-2010-cu illər, v 361

böyük xidmətləri olmuşdur.

"Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında tələbə və kadr mübadiləsi" adlanan ikinci yarımfəsildə iki qardaş ölkə arasında aparılmış olan ixtisaslı kadr və tələbə mübadiləsindən danışılır və qeyd edilir ki, əlaqələrin əsas prosedurlarından biri olan bu kimi əməkdaşlıq işi suverənliyin bərpa olunmasından sonra dərhal başlamışdır.

Yarımfəsildə o da qeyd olunur ki, Azərbaycan Rerspublikasının Türkiyə Cümhuriyyəti ilə təşkil olunmuş tələbə mübadiləsi işi 1995-ci ilədək faktiki olaraq bağlanmış müqavilə və sazişlərə uyğun olmasını, demək olar ki, kortəbii aparılmışdır. Lakin, Azərbaycan Respublikasında Heydər Əliyevin dövlət başçısı seçilməsindən sonra bu qanunsuzluqlara son qoyulmuşdur.

Eyni zamanda yarımfəsildə iki qardaş dövlət arasında təşkil olunmuş tələbə və kadr mübadiləsi işinin gələcək perspektivləri ilə bağlı müxtəlif məsələlərdən də bəhs edilmişdir.

Dissertasiya işinin "Nəticə" bölməsində əsərin məqsəd və vəzifələrindən irəli gələn ümumiləşdirmələr, yeni elmi fikir və təkliflər öz əksini tapmışdır.

**Dissertasiyanın məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Azerbaycan Tahsilinin Temelleri: Çarlık Rusyası Devrinde Maarifçi Aydınların Faaliyetleri, Journal of Qafqaz University, number:31, 2011, səh. 36-50
2. Müstəqillik dövründə Azərbaycan-Türkiyə təhsil əlaqələri və Heydər Əliyevin rolu, Azəebaycan Respublikası: Uğurlar və perspektivlər. Beynəlxalq elmi konfransın materialları, 16 noyabr 2011-ci il, Bakı 2012, səh. 23-30.
3. Türk liseylərinin Azərbaycan dövlətçiliyinə olan xidmətləri, Azərbaycan dövlətçilik tarixi respublika elmi konferansının materialları, Sumqayıt 24-25 may. 2012, səh. 223-225
4. Müstəqillik dövründə Azərbaycan Respublikasının Türkiyə ilə təhsil əlaqələrinin genişləndirilməsində Heydər Əliyevin rolu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası Bakı, 2012. №1, səh.171-174
5. Azerbaycan-Türkiye Eğitim İlişkileri, Uluslararası katılımlı bölgesel işbirliği ve kalkınma sempozyumu, 17-20 Ekim 2012,

Özetler- Abstrakt book, Erzurum-Türkiye, səh.171-174
6. Из истории открытия в Азердбайджана Турецских учебных заведепий и их деятельности , Хабарты, Алматы, 2012, №2 (33). Стр 91-94
7. Azərbaycan-Türkiyə: Təhsil sahəsində müstəqil əlaqələrin siyasi və hüquqi bazasının təşkili, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2012 №3. səh. 91-94
8. Bir Maarifçi aydın olarak Hüseyin Cavid, Türk Dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid beynəlxalq elmi konfransın materialları, 16-18 May 2013, səh. 18-33
9. Haydar Aliyev'in Amerika Birleşik Devletlerine ilk resmi ziyareti. Heydər Əliyev və Azərbaycançılıq. Respublika elmi konfransın materialları, Sumqayıt 2013, səh. 311-316
10. Azərbaycan Respublikasının Türkiyə ilə təhsil sahəsində qarşılıqlı əlaqələrinin mahiyyəti, təşəkkülü və siyasi aspektləri, Journal of Qafqaz University, number:34, 2012, səh. 120-128

**А.А.Чамалан**

## Связи Азербайджанской и Турецкой Республиками в области образования (1991-2010)

### РЕЗЮМЕ

Во "Введении" приводится обоснование актуальности темы, определяются историко-хронологические рамки и степень изучения предмета. Кроме того определяются цели и задачи исследования путем анализа источников и истории проблемы, приводятся сведения относительно методологическая основы, инновационности, научно-теоретической и практической значимости исследования и тестировании структуре диссертации.

В первой главе под названием "Значимость, организация и проблемы развития связей в сфере образования между Азербайджанской и Турцкой Республиками" на основании конкретных и фактических материалов исследуются исторические и политические аспекты связей с Турцией в сфере образования, организация политико-правовой базы и основные принципы этих связей, их характерные черты и проблемы, а также роль общенационального лидера Гейдара Алиева в создании и развитии связей с турцией в области образования.

Вторая глава "Организация и развитие связей между Азербайджанской и Турцкой Республиками в сфере общего образования" рассматривается организация и деятельность турецких общеобразовательных школ в Азербайджанской Республики, их успехи и достижения. В то же время, в этой главе исследуется роль деятельности турецких школ в Азербайджане в интеграции в современный процесс образования в развитых странах мира. Так, было доказано, что Азербайджан достигла этого путем создания связей с системой образования Турции, которая является неотъемлемой частью системы образования Европы.

Третья глава "Организация и развитие отношений между Азербайджаном и Турцией в области высшего образования" посвящена деятельности турецких высших учебных заведений в Азербайджане, обмену студентами и кадрами после восстановления независимости Азербайджанской Республики, а также важным научно-педагогическим и экономическим аспектам этих отношений.

В разделе "Заключение" приводятся обобщенные результаты научно-исследовательской работы и выдвигаются новые научные предложения.

**A.A.Chamalan**

## Azerbaijan and Turkey Communication in education (1991-2010)


### A B S T R A C T

The "Introduction" provides the rationale of the topic, determines historical and chronological framework and the degree of study of the subject. It also specifies the purpose and objectives of the study by analyzing the sources and history of the problem, provides information regarding the methodological foundations of the innovation, research and theoretical and practical significance of the research and testing of the structure of the dissertation.

In the first chapter, entitled " The importance, establishment and developmental problems in education ties between Azerbaijan and Turkey" historical and political aspects of relations with Turkey in the field of education, the organization of political and legal framework and basic principles of these relations, their characteristics and problems, as well as the role of the national leader Heydar Aliyev in the establishment and development of relations with Turkey in the field of education are researched.

The second chapter, "The organization and the development of relations between Azerbaijan and Turkey in the field of general education" focuses on the establishment and functioning of Turkish schools in Azerbaijan, their success and achievements. At the same time, this chapter examines the role of the activities of Turkish schools in Azerbaijan in the process of integration to the modern education. Thus, it was proved that Azerbaijan has achieved this by building links with the education system of Turkey, which is an integral part of the European education system.

The third chapter, "The establishment and development of relations between Azerbaijan and Turkey in the field of higher education" is dedicated to the activities of Turkish higher education institutions in Azerbaijan, exchange of students and staff after the restoration of the independence of Azerbaijan, as well as important scientific, educational and economic aspects of the relationship.

The "Conclusion" summarizes the results of the research and puts forward some new proposals.

Formatı: 60x84 1/16. F.ç.v. 2.
Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А. БАКЫХАНОВА**

*На провах рукописи*

**АХМЕД АДЕМ оглу ЧАМАЛАН**

# СВЯЗИ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ В ОБЛАСТИ ОБРАЗОВАНИЯ (1991-2010)

**Специальность : 5503.02 Отечественная история**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ - 2014**